**UOT: 33. 336.2: 338.4**

# AQRAR SAHƏNİN DAYANIQLI İNKİŞAFINDA SIĞORTA MEXANİZMİNİN ROLU

**Çilənay Mətləb qızı Abışova**

***Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı***

***e-mail: cilenay.mva@mail.ru***

***Xülasə***

*Aqrar sahənin hərtərəfli inkişafı ölkədə ərzaq təhlükəsizliyinin etibarlılığının artırılmasının, iqtisadiyyatın şaxələndirilməsinin, onun ixrac imkanlarının genişlənməsinin əsas istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında aqrar sahənin dayanıqlı inkişafını təmin etmək məqsədilə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyən, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən yeni sığorta mexanizmi yaradılmışdır. Məqalədə əvvəl tətbiq olunmuş və yeni yaradılmış mexanizmlər qarşılaşdırılmış, dəyişikliklərin aqrar sahəyə təsiri təhlil edilmişdir.*

***Açar sözlər:*** *aqrar sahə, dayanıqlı inkişaf, sığorta, sığorta mexanizmi, risklər.*

## Giriş

Kənd təsərrüfatı ölkənin iqtisadi və sosial problemlərinin həllində, xüsusən də regionlarda yaşayan insanların məşğulluğunda müstəsna rol oynayır. Aqrar sahənin hərtərəfli inkişafı sosial dayanıqlılığın, ərzaq təhlükəsizliyinin etibarlılığının artırılmasının, iqtisadiyyatın şaxələndirilməsinin, onun ixrac imkanlarının genişlənməsinin əsas istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan əhalisinin iqtisadiyyatla məşğul kəsiminin 36 faizdən çoxunun aqrar sektorda çalışması ilə bağlı bu sahənin güclü inkişafı həm də böyük sosial yük daşımaqla işsizliyin və yoxsulluğun azaldılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Son illər qeyri-neft sektorunda mühüm yeri olan aqrar sahənin inkişafı istiqamətində mühüm addımlar atılır. Bu sahəyə sərmayə qoyuluşu artır, kömək və təşviq mexanizmi genişləndirilir. Kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, bütün digər vergilərdən azad edilib. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət tərəfindən subsidiyalar ayrılır. Yeni texnikaların alınması ilbəil genişlənir. Müasir aqro-xidmət sahələri yaradılır. Fermerlərə güzəştli şərtlərlə gübrə, yanacaq, lizinqlə kənd təsərrüfatı texnikası və avadanlıqlar verilir. Güzəştli şərtlərlə verilən kreditlər hesabına istehsallar genişlənir, yeni aqrar istehsal sahələri yaranır. Aqrar sektora dövlət tərəfindən qoyulan investisiyalar, xüsusən son illərdə sürətlə artır.

**Aqrar sahədə sığortanın başlıca inkişaf istiqamətləri**

Ölkədə rəqabətqabiliyyətli kənd təsərrüfatı sektoru formalaşdırmaq üçün istehsalçıların maliyyə resursları ilə təminatının yaxşılaşdırılması, bu sahədə risklərin qiymətləndirilməsi, habelə bu risklərin azaldılması və ya təsirinin yumşaldılması üzrə mexanizmlərin təkmilləşdirilməsi zəruridir. Qeyd edilənləri nəzərə alaraq bu strateji hədəfdə üç prioritet istiqamət seçilmişdir. Birinci prioritet - aqrar sahədə maliyyələşmə mexanizminin təkmilləşdirilməsi üçün görüləcək tədbirləri özündə əks etdirir. İkinci prioritet - ölkədə aqrar sığortanın inkişaf etdirilməsi ilə bağlı tədbirləri əhatə edir. Sonuncu prioritet isə - kənd təsərrüfatına yerli, eləcə də xarici investisiyaların cəlb edilməsini stimullaşdırmaq üçün nəzərdə tutulan tədbirlərlə əlaqədardır.

Bütün dünya ölkələri kimi respublikamızda da kənd təsərrüfatı sahəsinin dayanıqlı inkişafı istehsalın fasiləsizliyini və əhalinin kənd təsərrüfatı məhsullarına olan ehtiyacının vaxtında təmin edilməsini ehtiva edir. Bu baxımdan qarşıya çıxa biləcək problemlərin -əlverişsiz iqlim şəraitinin, təbii fəlakətlərin, zərərli həşəratların əkin sahələrinə hücumunun və aqrar sektora dəyə biləcək digər zərərlərin əvəzinin ödənilməsi, risklərin idarə olunması, fermerlərə və sahibkarlara, təsərrüfat işçilərinə daha sağlam rəqabət mühiti yaratmaq üçün kənd təsərrüfatı sığortasının tətbiqi mütləqdir. Lakin ölkəmizdə mövcud olan mexanizm beynəlxalq sektordakı sığorta mexanizmlərdən geri qalmış, ümidləri doğrultmamışdır. Buna səbəb dövlət dəstəyi ilə həyata keçirilən sığorta hadisəsi kimi yalnız təbii fəlakətlərin məhdud siyahısı –yanğın, dolu, sel, daşqın və şaxta vurması müəyyən edilməsi olmuşdur. Bu halda bir sıra sığorta hadisələrindən, xüsusilə dəmyə torpaqlarında quraqlıq kimi təbii əlverişsiz hallardan, xüsusi təhlükəli ziyanvericilərin yayılmasından və hücumundan, yoluxucu xəstəliklərdən sığortalanma stimullaşdırılmırdı. Həmçinin təbii fəlakətlər, heyvan və bitki xəstəlikləri, iqlim məlumatları, habelə kənd təsərrüfatı istehsalında məhsuldarlıq göstəriciləri üzrə son 30–40 illik informasiya bazasının olmaması kənd təsərrüfatı sahəsində sığorta sisteminin inkişaf etməsinə maneə törədən əsas elementlərdən biri olmuşdur. Eyni zamanda, kənd təsərrüfatı sahəsində dünya təcrübəsində geniş tətbiq olunan müvafiq sığorta fondunun olmaması bu sahənin inkişafına öz mənfi təsirini göstərirdi.

Qeyd edilənlərlə əlaqədar kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta xidmətlərindən istifadə səviyyəsi çox aşağı idi. Belə ki, Maliyyə Nazirliyinin məlumatlarına görə, 2015-ci ildə ölkədə əmlak sığortasına görə ödənilmiş cəmi haqlarda kənd təsərrüfatı bitkiləri və heyvanlarının sığortasının payı 1,3 faizə bərabər olmuşdur. Kənd təsərrüfatı bitkiləri və heyvanlarının sığortalanması da əsasən "Aqrolizinq" ASC (ölkəyə idxal olunan cins heyvanlara görə) və kənd təsərrüfatı istehsalı ilə məşğul olan bir neçə iri maliyyə-sənaye qrupları tərəfindən aparılmışdır. Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının sığortalanmasına dövlət dəstəyi həyata keçirilsə də, bu dəstək tədbirindən praktiki olaraq istifadə olunmurdu. Bu faktlar bütövlükdə ölkədə aqrar sığorta sahəsinin inkişaf etdirilməsi, o cümlədən bu sahə üzrə dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi üçün geniş islahatların aparılmasının zəruri olduğunu göstərirdi [3, səh. 84]. Elə bu səbəbdən də Azərbaycan Respublikasında aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyən, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən yeni sığorta mexanizmi yaradılmış, bununla bağlı "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmiş və Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli

1617-VQ nömrəli Qanununun tətbiqi və "Aqrar Sığorta Fondunun yaradılması barədə" Fərman verilmişdir. Bununla yeni aqrar sığorta mexanizminin fəaliyyətə başlaması nəzərdə tutulur. Aqrar sığorta mexanizmi Kənd Təsərrüfatı Nazirliyinin rəhbərlik etdiyi, Maliyyə, İqtisadiyyat, Ədliyyə nazirlikləri, Maliyyə Bazarlarına Nəzarət Palatası, Əmlak Məsələləri Dövlət Komitəsi nümayəndələrinin də daxil olduğu işçi qrup tərəfindən hazırlanmışdır [1, 2].

Yeni yaradılmış mexanizmdə dünyada mövcud olan aqrar sığorta modelləri araşdırılaraq, mütərəqqi kənd təsərrüfatı sığortası sistemi olan ABŞ, Kanada, İspaniya, Türkiyə, İsrailin bu sahədə təcrübəsi öyrənilmiş, Azərbaycan üçün dövlət-özəl tərəfdaşlığını əsas tutan model hazırlanmışdır.

Yeni Qanun Kənd təsərrüfatı sığortası fəaliyyətinin əsaslarının müəyyən edilməsinə, Aqrar Sığorta Fondunun fəaliyyətə başlamasına, dövlət-özəl tərəfdaşlığının təmin edilməsinə, kənd təsərrüfatı sığortasının qabaqcıl təcrübə əsasında həyata keçirilməsinə, kənd təsərrüfatı sığortası üzrə ekspertlər institutunun yaradılmasına, kənd təsərrüfatı sığortası üzrə statistik məlumatları özündə cəmləşdirən elektron informasiya sisteminin qurulmasına, kənd təsərrüfatı sığortası mexanizmində mütərəqqi təcrübəyə malik olan ölkələrin praktikasının daha da yaxından öyrənilməsi və ölkədə olan kənd təsərrüfatı risklərinin təkrar sığortalanması üçün beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, stabil və təhlükəsiz kənd təsərrüfatı sığortası mexanizminin formalaşması üçün münbit zəminin formalaşmasına xidmət edəcəkdir. Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına əsasən bu mexanizmin həyata keçirilməsi üçün görüləcək işlər müəyyən edilibdir.

Yeni sığorta mexanizmi Azərbaycanda ilk dəfə olaraq müştərək sığorta sisteminin yaradılmasını nəzərdə tutur. Müştərək sığorta sistemi sığortaçıların birgə vəsaitləri ilə özlərini sığorta etdirməsidir. Sığorta şirkətlərinin yerinə yetirdiyi sığortadan fərqli olaraq, bu sistemdə heç bir sığorta hadisəsi baş vermədikdə yığılmış vəsaitlər silinmir və növbəti ilə saxlanılır. Üstəlik dövlət sığorta vəsaitinin müəyyən edilən faizi həcmində sığorta edilənlərə subsidiya ayıracaq. Təkrarsığorta siyasəti və sığorta risklərinin düzgün qiymətləndirilməsi nəticəsində bu sahədə dayanıqlı və effektiv fəaliyyət təmin ediləcəkdir ki, bu da katastrofik fəlakətlər zamanı dövlət büdcəsinin artıq yüklənməsinin qarşısı alınacaqdır. Bu tədbirlər çərçivəsində etibarlı kənd təsərrüfatı sığortası mexanizminin tətbiqi qeyri-neft sektorunda ÜDM-nin artırılması ilə yanaşı, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunmasına və aqrar sektorun investisiya cəlbediciliyinin yüksəlməsinə də müsbət təsir göstərmək imkanına malik olacaq. Nəticədə yeni aqrar sığorta sisteminin tətbiqi kənd təsərrüfatı istehsalının davamlılığının təmin edilməsinə yönəldilmiş olur. Yeni mexanizmdə Aqrar Sığorta Fondunun yanında sığorta şirkətlərinin təsisçiliyi ilə idarəedici qurumun yaradılması nəzərdə tutulmuşdur ***(Şəkil)***. Bütün bunlarla yanaşı Aqrar Sığorta Fondu tərəfindən fermerlərin itkiləri qarşılanacaq, sığorta haqlarının yarısı dövlət tərəfindən ödəniləcəkdir.

Aqrar Sığorta Fondu fermerlərə sığorta xidmətlərini təqdim etməyə başlayıb. Qurum aqrar sığorta sisteminin təşkilini, inkişafını, dayanıqlılığını və fasiləsiz fəaliyyətini, idarəedici qurumun formalaşdırılmasını təmin etmək və onun fəaliyyətinə nəzarət etmək məqsədilə yaradılıb. İndiyədək Azərbaycanda bu xidmət özəl sığorta şirkətləri tərəfindən həyata keçirilirdi. Özəl şirkətlər kommersiya prinsipi ilə işlədiyinə görə bəzi hallarda zərərli hesab etdikləri bizneslərin sığortalanmasından imtina edirdilər. Burada mühüm məqam ondan ibarətdir ki, Fond qeyri-kommersiya prinsipi ilə işlədiyi üçün fermerlərin itkilərini qarşılayacaq [4, 5].

**Şəkil. İdarəedici Şirkətin əsas funksiyaları**




| | |
|---|---|
| 1. | Fondun icra səlahiyyətlərini həyata keçirmək |
| 2. | Sığorta müqavilələri satmaq |
| 3. | Sığorta hadisələrini tənzimləmək |
| 4. | Elektron informasiya sisteminin hazırlanması və dəstəklənməsini təşkil etmək |
| 5. | Müstəqil ekspertlər hazırlamaq və onlarla işi qurmaq |

***Mənbə:*** *"Aqrar sığorta haqqında" Qanuna əsasən müəllif tərəfindən tərtib edilmişdir*

Aqrar Sığorta Fondu vasitəsilə sığortalanan zaman dövlət sığorta haqlarına 50 faiz yardım edəcək. Tutaq ki, 1000 manat sığorta haqqı müəyyən edilirsə, fermer yalnız 500 manat ödəyəcək. Sığorta hadisəsi zamanı ərazi üzrə məhsuldarlıq orta bazar qiymətinə vurulacaq və sığorta ödənişi müəyyən ediləcək. Aqrar sığorta sisteminin işə düşməsi ümumilikdə, aqrar sahənin risklərini də azaldacaq. Nəticədə bu sahəyə investisiya və kreditlər cəlb etmək daha da asanlaşacaq.

Onu da qeyd edək ki, Azərbaycanda aqrar siğorta sistemi qardaş Türkiyənin TARSİM (Kənd Təsərrüfatını Sığortalama Sistemi) təşkilatının təcrübəsi və dəstəyi ilə formalaşıb. Bu model dünyada ən uğurlu mexanizmlərdən biridir.

Ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən aqrar sahədə əldə edilən uğurlar və yüksək nəticələr Azərbaycanda dinamik inkişafın göstəricisidir. Bu tərəqqi və rifah, əhalinin maddi durumunun əhəmiyyətli dərəcədə yaxşılaşması üçün aparılan məqsədyönlü dövlət siyasətinin bəhrəsidir.

## Nəticə

Azərbaycanda kənd təsərrüfatı istehsalının sığortalanmasına dövlət dəstəyinin reallaşdırılması praktiki müstəviyə keçirilmişdir. Bu da bütövlükdə ölkədə aqrar sığorta sahəsinin inkişaf etdirilməsi, o cümlədən bu sahə üzrə dövlət dəstəyi mexanizmlərinin ardıcıl olaraq təkmilləşdirilməsini göstərir. Aşağıda qeyd olunmuş tədbirlərin həyata keçirilməsi ilə aqrar sahədə yeni sığorta mexanizminin tətbiqini sürətləndirə bilərik:

- *Kənd təsərrüfatı məhsulları istehsalçılarının aqrar sığorta ilə bağlı qəbul edilmiş yeni sığorta mexanizm ilə bağlı ətraflı məlumatlılığının təmin olunması;*

- *Sığorta fondunun işinin beynəlxalq təcrübəyə uyğun təşkil edilməsi və yeniliklərin tətbiqinin davamlı olaraq təhlili;*

*- Kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta savadlılığının (biliklərinin) artırılması;*

*- Ölkədə kənd təsərrüfatı sahəsi üzrə sığorta risklərinin effektiv şəkildə qiymətləndirilməsi üçün iqlim məlumatları və təbii fəlakətlər, heyvan və bitki xəstəlikləri, habelə məhsuldarlıq göstəriciləri üzrə uzunmüddətli dövr üçün informasiya bazasının beynəlxalq praktikaya uyğun hazırlanması.*

**Ədəbiyyat**


1. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı. 27 iyun 2019. https://president.az/articles/34033
2. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1617-VQ nömrəli Qanununun tətbiqi və "Aqrar Sığorta Fondunun yaradılması barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. http://www.e-qanun.az/framework/43125
3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi".
4. Banco.az (Azərbaycanda ilk aqrar sığorta mexanizmi).
5. https://azkurs.org/azerbaycanda-kend-teserrufati-sahesinin-davamli-inkisafi.



Ch.M. Abishova

*Ph.D. student of the* Agricultural Economics Research Center


**The role of the insurance mechanismin the sustainable development of agriculture**


*Summary*

*The comprehensive development of the agricultural sector is important as one of the main directions of increasing the reliability of the country's food security, diversifying the economy, expanding its export potential. In order to ensure sustainable development of the agricultural sector in the Republic of Azerbaijan, a new insurance mechanism was created, which regulates relations related to risk insurance through the joint insurance mechanism, and defines the legal, economic and organizational framework for agricultural insurance. The article compares previously used and new mechanisms and analyzes the changes made in the agricultural sector.*



***Keywords****: agricultural sector, sustainable development, insurance, insurance mechanism, risks.*

Ч.М. Абишова

*Докторант* Центра аграрных исследований

**Роль страхового механизма в устойчивом развитии сельского хозяйства**

*Резюме*

*Всестороннее развитие аграрного сектора важно как одно из основных направлений повышения надежности продовольственной безопасности страны, диверсификации экономики, расширения ее экспортного потенциала. В целях обеспечения устойчивого развития сельскохозяйственного сектора в Азербайджанской Республике был создан новый механизм страхования, который регулирует отношения, связанные со страхованием рисков через механизм совместного страхования, и определяет правовые, экономические и организационные основы сельскохозяйственного страхования. В статье сравниваются ранее применяемые и новые механизмы и анализируется проведенных изменений на аграрный сектор.*

***Ключевые слова:*** *аграрный сектор, устойчивое развитие, страхование, механизм страхования, риски.*